**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№349/1** **19 oktyabr 2022-ci il**

# "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə

Auditor xidməti zamanı haqsız rəqabətin, dempinq hallarının aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin, müstəqil auditə ictimai etimadın və Auditorlar Palatasının ictimai nüfuzunun artırılması məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Bu Əsasnamə 2022-ci ilin 01 noyabr tarixindən tətbiq edilsin.

3. Auditorlar Palatasının üzvlərinə tapşırılsın ki, "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin tələblərinə ciddi riayət etsinlər və auditor xidməti zamanı icra intizamının pozulmasına yol verməsinlər.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) və həmin idarənin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli), Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov), Auditorlar Palatasının Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (V.Rəhimov) və Etika, mübahisələr və intizam Komissiyasına (K.Hüseynov) tapşırılsın ki, Auditorlar Palatasının üzvləri tərəfindən auditor xidməti zamanı icra intizamının pozulması hallarının operativ araşdırılmasını və müvafiq intizam məsuliyyətinin tətbiq olunmasına dair təkliflərini təqdim etsinlər.

5. Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, bu Əsasnamənin Auditorlar Palatasının üzvlərinə çatdırılması təmin edilsin.

6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin mətnlərinin Auditorlar Palatasının internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**